# AZƏRBAYCAN RESPUBLİKASI

# TƏHSİL NAZİRLİYİ

# BAKI DÖVLƏT UNİVERSİTETİ

# FİLOLOGİYA FAKÜLTƏSİNİN

# 2011-2015-Cİ İLLƏR ÜZRƏ

# HESABATI

*B A K I – 2 0 1 5*



***Bakı Dövlət Universitetinin əsas fakültələri – tarix fakültəsi, filologiya fakültəsi Azərbaycan dilinin, Azərbaycan elminin inkişafında müstəsna yer tutur.***

***HEYDƏR ƏLİYEV***

***Azərbaycan xalqının ümummilli lideri***

# FİLOLOGİYA FAKÜLTƏSİNİN

# 2011-2012-CI TƏDRİS İLİ ÜZRƏ

# HESABATI

# 2011-2012-Cİ TƏDRİS İLİNİN HESABATI

***Filologiya fakültəsi 1919-cu ildə Universitetin ilk iki fakültəsindən biri olaraq yaradılmışdır.***

***1939-cu ildən müstəqil fəaliyyət göstərir. Fakültənin ilk azərbaycanlı dekanı məşhur dilçi alim, professor Məmmədağa Şirəliyev olmuşdur.***

***Respublikamızda filologiya sahəsində öz əsərləri, elmə gətirdikləri yenilikləri ilə ən çox tanınan alimlər bu fakültənin yetirmələri olmuşlar. Zəngin ənənələrə malik olan Filologiya fakültəsi xalqımızın milli-mənavi dəyərlərinin formalaşmasında mühüm rol oynayır.***

[redacted]



M.Dadaşzadə M.Şirəliyev Mir Cəlal M.Hüseynzadə K.Talıbzadə Ə.Sultanlı C.Xəndan B.Vahabzadə A.Zamanov S.Cəfərov B.Nəbiyev Ə.Abdullayev F.Zeynalov F.Hüseynov F.Hüseynov S.Əlizadə Ş.Qurbanov C.Abdullayev A.Nəbiyev



[redacted]



**Fakültənin strukturu:**
**Fakültədə 16 kafedra və 4 elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir.**

## FAKÜLTƏNİN TƏLƏBƏ KONTİNGENTİ

| Bakalavriat | | Magistratura | |
|---|---|---|---|
| Əyani | Qiyabi | Əyani | Qiyabi |
| 766 | 382 | 50 | 41 |
| 44 nəfər xarici | 1 nəfər xarici | 2 nəfər xarici | |
| **Cəmi: 1239 tələbə və magistrant** | | | |




Fakültədə 275 nəfər professor-müəllim heyəti, o cümlədən 2 AMEA-nın muxbir üzvü, 32 professor və ya elmlər doktoru, 120 dosent və ya fəlsəfə doktoru, 22 nəfər elmi işçi, 6 tyutor fəaliyyət göstərir.

**Müqaisə üçün**

**2012-ci il**

32 professor və ya elmlər doktoru
120 dosent və ya fəlsəfə doktoru

**2007-ci il**

28 professor və ya elmlər doktoru
85 dosent və ya fəlsəfə doktoru

**Elmi potensialın yaş senzinə görə paylanması**

20-30 yaş – 13
31-40 yaş – 25
41-50 – 43
51-60 – 76
61-70 – 56
70-dən yuxarı – 40

**Fakültədə bakalavr pilləsində 6 ixtisas üzrə kadrlar hazırlanır:**

1. Filologiya (Azərbaycan dili və ədəbiyyati)
2. Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
3. Filologiya (rus dili və ədəbiyyati)
4. Dil və ədəbiyyat müəllimliyi (rus dili və ədəbiyyatı müəllimliyi)
5. Xarici dil müəllimliyi (alman dili müəllimi)
6. Xarici dil müəllimliyi (fransiz dili müəllimi).

Magistratura pilləsində 14 ixtisas üzrə kadrlar hazırlanır:

1. Azərbaycan ədəbiyyatı tarixi
2. Xarici ölkə xalqları ədəbiyyatı (rus ədəbiyyatı)
3. Xarici ölkə xalqları ədəbiyyatı (dünya ədəbiyyatı)
4. Xarici ölkə xalqları ədəbiyyatı (Türk xalqları ədəbiyyatı)
5. Ədəbiyyat nəzəriyyəsi

6. Folklorşünaslıq və mifologiya
7. Azərbaycan dili və ədəbiyyatının tədrisi metodologiyası və metodikası
8. Ədəbi tənqid nəzəriyyəsi və tarixi
9. Azərbaycan dili
10. Türkologiya
11. Ümumi dilçilik
12. Xarici dil (rus dili)
13. Xarici dil (alman dili)
14. Xarici dil (fransız dili)

**FAKÜLTƏNİN MÜKAFATA LAYIQ GÖRÜLMÜŞ ƏMƏKDAŞLARI**

| | | |
|---|---|---|
| 1. | Respublika Dövlət Mükafatı Laureatı | 2 |
| 2. | Əməkdar elm xadimi | 4 |
| 3. | Əməkdar müəllim | 10 |
| 4. | Əməkdar jurnalist | 1 |
| 5. | Şöhrət ordeni | 3 |
| 6. | AR Prezidentinin fərdi təqaüdçüsü | 2 |
| 7. | Tərəqqi medalı | 3 |
| 8. | Qabaqcıl təhsil işçisi | 1 |

**ELMİ POTENSİAL HAQQINDA ÜMUMİ MƏLUMAT**

| Adı / sayı | AMEA-nın müxbir üzvü | Elmlər doktoru və ya professor | Fəlsəfə doktoru və ya dosent | Elmi işçi | Tyutor | Laborant |
|---|---|---|---|---|---|---|
| Kafedra – 16<br>Laboratoriya - 3 | 2 | 32 | 120 | 22 | 6 | 29 |

**FAKÜLTƏDƏ STRUKTUR DƏYİŞİKLİKLƏRİ**

Rektorun əmrinə əsasən:

1. Klassik rus ədəbiyyatı və Müasir rus ədəbiyyatı kafedraları bazasında Rus ədəbiyyatı tarixi kafedrası yaradılmışdır.

2. İngilis dili kafedrası humanitar və təbiət fakültələri üzrə ayrılmışdır.

**Abay Kunanbayev adına Mərkəzin açılışı**

15 may 2011-ci ildə Filologiya fakültəsində qazax şairi, yazıçısı, ictimai xadimi, müasir qazax yazılı ədəbiyyatının banisi Abay Kunanbayev adına Mərkəzin rəsmi açılışı olmuşdur.

**Fakültə əməkdaşları tərəfindən alınmış elmi adlar**

Professor elmi adı 2
Dosent elmi adı 2

**Fakültə əməkdaşları tərəfindən müdafiə edilmiş dissertasiyalar**

Elmlər doktoru 1
Fəlsəfə doktoru 4

**Doktoranturaya qəbul**

**2012-ci ildə doktoranturaya qəbul olunanlar**

| | |
|---|---|
| Elmlər doktoru proqrammı üzrə doktoranturaya qəbul olunanlar | 5 |
| Fəlsəfə doktoru proqrammı üzrə doktoranturaya qəbul olunanlar | 8 |
| Fəlsəfə doktoru proqrammı üzrə dissertant təhkim olunanlar | 7 |

## Dissertasiya Şurasının fəaliyyəti

Fakültənin nəzdində filologiya elmləri doktoru və fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən Dissertasiya Şurası fəaliyyət göstərir. Dissertasiya Şurasının sədri M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı Filialının rektoru, BDU-nun Klassik Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Nərgiz Arif qızı Paşayevadır.

2012-ci ildə D.02.181 Dissertasiya Şurasında 3 nəfər filologiya üzrə elmlər doktoru və 9 nəfər filologiya üzrə fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirilmişdir. Onlardan 1 filologiya üzrə elmlər doktoru və 3 filologiya üzrə fəlsəfə doktoru dissertasiyalarının müəllifləri Filologiya fakültəsinin əməkdaşlarıdır.

**Elmi-tədqiqat işlərinin nəticələri**

**2012-ci ildə nəşr olunmuş**

- MONOQRAFİYA
  XARİC……….1 RESPUBLİKA……...45
- DƏRSLİK……………………………………………………….9
- DƏRS VƏSAİTİ……………………………………………..22
- PROQRAM……………………………………………………..13
- METODİK VƏSAİT VƏ METODİK GÖSTƏRİŞ…………..……6
- LÜĞƏT…………………………………………………………..3
- TƏRCÜMƏ……………………………………………………...4
- ELMİ MƏQALƏLƏR TOPLUSU……………………….…....1
- MƏQALƏLƏR
  XARİC……….40 RESPUBLİKA………323
- TEZİSLƏR…………………………………………………….....12

**2011-ci ildə nəşr olunmuş**

- MONOQRAFİYA……………………………………………...16
- DƏRSLİK………………………………………………………22
- DƏRS VƏSAİTİ………………………………………………..18
- PROQRAM……………………………………………………..11
- METODİK VƏSAİT VƏ METODİK GÖSTƏRİŞ…………..……7
- LÜĞƏT…………………………………………………………..1
- TƏRCÜMƏ……………………………………………………...4
- **MƏQALƏLƏR**

XARİC……….54
RESPUBLİKA……....307

- TEZİSLƏR……………………………………………………....8

**2007-ci ildə nəşr olunmuş**
**Müqayisə üçün**

- DƏRSLİK və DƏRS VƏSAİTİ………………………..30
- MƏQALƏLƏR
  XARİC……….19 RESPUBLİKA………331

**Vagif Sultanly and Iraj Ismaely**
**MODERN AZERBAIJANIAN PROSE**
**United States of Amerika, 2012, 488 p.**

**Fakültə əməkdaşları tərəfindən verilmiş rəylər**

| Pəy | Elmlər doktoru | Fəlsəfə doktoru |
|---|---|---|
| Opponent kimi | 3 | 17 |
| Aparıcı təşkilat kimi | 8 | 25 |

## ELMİ HESABAT

- 2011-ci ilin nəticısinə görə- 13678 bal
- 2012-ci ilin nəticısinə görə- 14555 bal

**2009-2012-ci illər ərzində Filologiya fakültəsi üzrə Universitetdaxili «50+50» Proqramı üzrə qazanılmış qrantlar**

| | 2009-2010-cu il | 2010-2011-ci il | 2011-2012-ci il | 2012-2013-cü il |
|---|---|---|---|---|
| Professor-müəllim heyəti (əməkdaşlar) | 1 | | 1 | 2 |
| Gənc (35 yaş adək) professor-müəllim heyəti (əməkdaşlar) | 1 | 1 | 1 | 3 |
| Doktorant, dissertant və magistrantlar | 1 | 1 | | 1 |
| Tələbələr | 1 | 1 | 1 | 2 |

**Respublikadaxili qrant layihəsi**

2011-ci ildə Təhsil Nazirliyi tərəfindən elan edilmiş Ümumtəhsil məktəbləri üçün dərslik tenderi Rus dili (humanitar fakültələri üzrə) kafedrası udmuşdur. Layihə çərçivəsində Ə.Paşayevanın rəhbərliyi ilə Azərbaycan bölməsinin 7-ci, 8-ci, 9-cu, 11-ci sinif şagirdləri üçün Rus dili dərslikləri hazırlanıb nəşr edilmişdir.

**Müxtəlif ölkələrdə keçirilən Beynəlxalq konfranslar və simpoziumlarda iştirak**

- 21.11.12-22.11.2012-ci il tarixində Türk xalqları ədəbiyyatı kafedrasının müdiri, f.e.d. Ramiz Əsgər «Babur və Baburnamə» mövzusunda Türkiyə Respublikasında keçirilən simpoziumda iştirak etmişdir.
- 29.11.12-02.12.12-ci il tarixində Alman və fransız dilləri kafedrasının müdiri, dos. Fərəcullayeva Elmira «Qarabağ dünyanın unudulmuş müharibəsi» adlı kitabının 2013-cü ildə onlayn yayımı ilə bağlı Fransa Respublikasının Paris şəhərində ezamiyyətdə olmuşdur.
- 21.11.12-23.11.12-ci il tarixində Rus ədəbiyyatı tarixi kafedrasının dosenti, f.e.d. Gərayzadə Leyla Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB Parlament Assambleyası Qırğız Respublikası Parlamenti ilə birgə yazıçı Çingiz Aytmatova həsr olunmuş «Ç.Aytmatov: mədəniyyətlərin inteqrasiyası və dialoqu» mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etmişdir.

| Ölkə | İştirakçi |
|---|---|
| Türkiyə | 6 |
| Rusiya | 2 |
| Gürcüstan | 2 |
| Fransa | 1 |
| Almaniya | 1 |

**2011/2012-ci tədris ili üzrə Yekun Dövlət imtahanlarının nəticələri**

| Şöbə | İmtahana buraxılanların sayı | Müvəffəq qiymət alanlar | Qeyri-müvəffəq qiymət alanlar |
|---|---|---|---|
| Əyani | 191 | 189 | 2 |
| Qiyabi | 78 | 73 | 5 |
| Cəmi | 269 | 262 | 7 |

## ELMİ-METODİK ŞURASININ FƏALİYYƏTİ

| İl | Açıq dərslərin sayı | Metodik işlərinin müzakirəsi |
|---|---|---|
| 2012-ci il | 22 | 16 |
| 2011-ci il | 29 | 20 |

**2011-ci il də rektorluğun tövsiyəsi ilə bağlı rus dili (humanitar və təbiət fakültələri üzrə) kafedralarında fənn proqrammı və dirsliyin müzakirəsi keçirilmiş, onların sadələşdirilməsi qərara alınmışdır. Az vaxt ərzində rus dili üzrə dərslik çap olunmuşdur.**

**Rektorun sərəncamı ilə tədris planında olunan dəyişikliklər**

Nitq mədəniyyəti (Azərbaycan dili) fənni üzrə 30 saat əlavə verilib

Nitq mədəniyyəti (Rus dili) fənni üzrə 30 saat əlavə verilib

**Attestasiya keçirilməsi haqqında**

2012-ci ildə Təbiət fakültələri üzrə İngilis dili, Humanitar fakültələri üzrə İngilis dili, Alman və fransız dilləri kafedralarının professor-müəllim heyətinin attestasiyalarının nəticəsində 18 nəfər 0,5 ştatdan tam ştata keçirilmiş və 14 nəfər 0,5 ştat müəllim vəzifəsinə qəbul edilmişdir.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə bağlı keçirilmiş 3 Respublika elmi konfrans**

**14-15 noyabr 2011-ci il**

Filologiya elmləri doktoru əməkdar elm xadimi, professor Abbas Fəttah oğlu Zamanovun 100 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilmişdir.

Konfrans materialları (774 səh.) nəşr olunmuşdur.

**17-18 may 2012-ci il**

Azərbaycan ədəbiyyatının görkəmli şair Mirzə Ələkbər Sabirin anadan olmasının 150 illik yubileyi münasibəti ilə «Azərbaycan filologiyasının aktual problemləri» adlı Respublika elmi-nəzəri konfrans keçirilmişdir.

Konfrans materialları (629 səh.) nəşr olunmuşdur.

**28-29 noyabr 2012-ci il**

Azərbaycan ədəbiyyatının görkəmli şair və dramaturq Hüseyn Cavidin 130 illik yubileyinə həsr olunmuş Respublika elmi konfrans keçirilmişdir.

Konfrans materialları (316 səh.) nəşr olunmuşdur.





**Hüseyn Cavidin 130 illiyinə həsr edilmiş «Hüseyn Cavid və Azərbaycan ədəbiyyatı» mövzusunda məqalə fakültənin tələbəsi birinci yerə layıq görülmüşdür.**

**2012-ci ildə keçirilmiş yubiley tədbirləri**

**Mirzə Fətəli Axundzadə - 200**



28.12.2012-ci ildə böyük Azərbaycan mütəfəkkiri, milli dramaturgiyamızın banisi, görkəmli ictimai xadim və maarifçi Mirzə Fətəli Axundzadənin 200 illik yubileyini keçirmişdir.

**Məmməd Səid Ordubadi – 140**



18 oktyabr 2012-ci ildə Filologiya fakültəsində görkəmli nasir, şair, dramaturq, jurnalist, tərcüməçi, Azərbaycanın əməkdar incəsənət xadimi Məmməd Səid Ordubadinin 140 illiyinə həsr olunmuş tədbir keçirilib.

**Nizami Gəncəvi – 870**



03.05.2012

Fakültəmizdə Şərq poeziyasının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 870-illik yubiley tədbiri keçirildi.

**Əhməd Cavad – 120**



18.04.2012

Filologiya fakültəsində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, böyük şair və maarifçi, tanınmış ictimai xadim, Azərbaycanın Dövlət Himninin sözlərinin müəllifi Əhməd Cavadın anadan olmasının 120 illik yubileyi münasibətilə tədbir keçirilib.

**QEYD:**

**1. Filologiya fakültəsi bir neçə yubiley tədbirini Bakı şəhər orta məktəbləri ilə birgə** keçirmişdir.

2. Azərbaycan Dillər Universitetində və Azərbaycan Muəllimlər İnstitutunda keçirilən yubiley tədbirlərində Filologiya fakültəsinin əməkdaşları əsas məruzəçi kimi çıxış etmişlər.

Fakültənin təcrübəli müəllimləri BDU-nun nəzdindəki «Gənc istedadlar» liseyində dərslərdə iştirak etmiş, metodiki məsləhətlər vermişlər.

## İLİN FAKÜLTƏSİ

**2012-ci ildə Filologiya fakültəsi ilin fakültəsi adı qazanmışdır**




## TƏLTİFLƏR

2012-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, BDU-nun Klassik Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, professor Nərgiz Paşayeva Macarıstanın “Xidmətlərə görə” komandor xaç ordenilə təltif olunmuşdur.

2012-ci ildə Alman və fransız dilləri kafedrasının müdiri, dosent Elmira Fəracullayeva «İlin müəllimi» adına layıq görülmüşdür.

2011-ci ildə Türk xalqları ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru Ramiz Əsgər «İlin alimi» fəxri ada layıq görülmüşdür. O, 2012-ci ildə Bəkir Çobanzadə mükafatına layiq görülmüşdür. Bu mükafat Azərbaycan aliminə tanınmış dilçi-türkoloq Bəkir Çobanzadənin «Seçilmiş şeirləri» və «Seçilmiş bədii əsərləri» kitablarının tərcüməsinə görə verilmişdir.

## TƏLƏBƏLƏRIN NAILIYYƏTLƏRI

**Beynəlxalq elmi konfransda iştirak**

| | |
|---|---|
| Magistrant | 7 |
| Tələbə | 2 |

---

**«Mən fəxr edirəm ki, mən azərbaycanlıyam» publisistik məqalə müsabiqəsində tələbəmiz III** yeri tutmuşdur.

---

28 May Respublika gününə həsr edilmiş yaradıcılıq müsabiqəsi

- BDU-nun Tələbə Həmkarlar Təşkilatı və Filologiya fakültəsi 28 May Respublika gününə həsr edilmiş yaradıcılıq müsabiqəsini keçirmişdir.
- Qaliblərə pul mükafatı və hədiyyələr verilmişdir.

---

“Heydər Əliyev və Azərbaycan gəncliyi” məqalə müsabiqəsində Filologiya fakültəsinin tələbəsi I yeri tutmuşdur.

---

«Mən azərbaycanlıyam» milli intellektual bilik yarışmasında fakültəmizin tələbəsi qalib oldu.

2012-ci il dekabrın 21-də Dünya Azərbaycanlılarının həmrəyliyi gününə həsr olunmuş "Müasir tərcüməşünaslığın və mədəniyyətşünaslığın aktual problemləri" mövzusunda Respublika elmi konfransında tələbə və magistrantlarımız iştirak etmişdir.






**Tələbələrin XVI və XVII Respublika Fənn Olimpiadalarında iştiraki**

| Fənlərin adı | | I yer | II yer | III yer | Həvəsləndirici yer |
|---|---|---|---|---|---|
| Azərbaycan dili | 2011-ci il | 1 | 1 | 1 | |
| | 2012-ci il | | 1 | 1 | 1 |
| Rus dili | 2011-ci il | | | 1 | |
| | 2012-ci il | | 1 | | |
| Alman dili | 2011-ci il | | | 2 | |
| | 2012-ci il | | 1 | | 2 |
| Fransız dili | 2011-ci il | | | 1 | |
| | 2012-ci il | | | 2 | |

**BDU-nun nəzdində Dram klubu yaradılması**

Hüseyn Cavidin 130-illik yubileyinə həsr olunmuş tədbirdə fakültəmizin tələbələri şairin əsərlərindən ibarət səhnəcikləri nümayiş etdirmişlər. Onların çıxışlı tədbir iştirakçıları tərəfindən rəğbətlə qarşılamışdır. Bundan sonra qərara alınmışdır ki, Filologiya fakültəsi dayaq olmaqla BDU-nun nəzdində Dram klubu yaradılsın.

Xaricdən dəvət olunan müəllim

Bakı Dövlət Universiteti ilə Fransanın Azərbaycandakı səfirliyi arasında imzalanmış müqaviləyə əsasən «Danışıq dilin praktikası» və «Yazılı və şifahi nitq praktikası» fənləri tədris etmək üçün Fransa Respublikasının vətandaşı Bastyen Vannye dəvət olunub.

**Akademik Milli Dram teatrı ilə əlaqələr**

2012-ci ildə 200 müəllim və tələbə bədii əsərlərin əsasında qoyulmuş tamaşalara baxmışlar.

**Xeyriyyə aksiyası**

2012-ci ildə Filologiya fakültəsinin professor-müəllim heyəti və tələbələri xeyriyyə aksiyası keçirmişlər:

1 saylı körpələr evinə və 2 saylı uşaq internat evinə 700 manatlıq hədiyyələr alınmış və uşaqlara paylanmışdır.

**Fakültədə təmir işləri**

2012-ci ildə fakültə dekanlığının yerləşdiyi otaq, tyutorlar otağı, Müasir Azərbaycan ədəbiyyatı, Rus ədəbiyyatı tarixi kafedralarının otaqlarında, 306, 312, 313, 418 auditoriyalarda təmir işləri aparılmışdır.

**MÜASİR TEXNOLOGİYALARIN TƏDRİSDƏ TƏTBİQİ**

Humanitar fakültələr üzrə rus dili kafedrasının nəzdində olan auditoriyada elektron lövhə quraşdırılmışdır.

**Rəy və təkliflər**

1. Alman dili və ədəbiyyatı, Fransız dili və ədəbiyyatı ixtisasları üzrə tələbə qəbulunun bərpası.
2. Alman dili və fransız dili üzrə nəzəri kafedraların yaradılması.
3. Xarixci dillərin tədrisi və tərcüməsi mərkəzi yaradılması.
4. Fakültənin kompüter otağının yenidən qurulması və müasir kompüterllərlə təmin edilməsi.
5. «Universitetin xəbərlərinin» Humanitar seriyasından Dil və ədəbiyyat seriyasının ayrılaraq, müstəqil nəşr edilməsi.
6. Beynəlxalq əlaqələrinin genişlənməsi ilə əlaqədar olaraq BDU-nun digər universitetlərlə bağlanmış muqavilələrində Azərbaycan dilinin tədrisi məsələsini daxil edilməsi.
7. Hörmətli rektorun ortaq türk dilinin yaradılması haqqında təklifinə uyğun tədbirlərin həyata keçirilməsi.

**Professorların yaş senzinə görə paylanması**

31-40 yaş – 0
41-50 – 1
51-60 – 4
61-70 – 5
70-dən yuxarı – 13

**Dosentlərin yaş senzinə görə paylanması**

30 yaşadək – 0
31-40 yaş – 11
41-50 – 22
51-60 – 31
61-70 – 27
70-dən yuxarı – 9

**Fərqlənmə diplomu alanlar**

| Bakalavriat | | Magistratura | |
|---|---|---|---|
| Əyani | Qiyabi | Əyani | Qiyabi |
| 7 | - | 21 | 11 |

**2011/2012-ci tədris ilinin qış imtahan sessiyası haqqında**

QIŞ İMTAHAN SESSİYASI HAQQINDA

| Kurs | Tələbə sayı | | İmtahanları müvəffəqiyyətlə verənlər | | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | İmtahanda iştirak edən | Cəmi | O cümlədən | | |
| | | | | A | A.B.C | A.B.C.D.E |
| 2 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| I | 179 | 179 | 144 | 1 | 75 | 68 |
| II | 186 | 185 | 136 | 2 | 92 | 42 |
| III | 212 | 209 | 136 | 6 | 93 | 37 |
| IV | 193 | 193 | 160 | 23 | 105 | 32 |
| | | | | | | |
| Cəmi | 770 | 766 | 576 | 32 | 365 | 179 |

## Tədris təcrübələri

2012-ci ildə «Filologiya (Azərbaycan dili və ədəbiyyati)», «Azərbaycan dili və ədəbiyyatı müəllimliyi» və «Dil və ədəbiyyat müəllimliyi (rus dili və ədəbiyyatı müəllimliyi)» ixtisaslarının I kurs tələbələri Şifahi xalq yaradıcılığı üzrə və II kurs tələbələri Dialektologiya üzrə tədris təcrübələrini uğurla keçmişlər.

«Xarici dil müəllimliyi (alman dili müəllimi)» və «Xarici dil müəllimliyi (fransiz dili müəllimi)» ixtisaslarının II və III kurs tələbələri Nitq praktikası üzrə tədris təcrübələrini keçmişlər.

«Azərbaycan dili və ədəbiyyatı müəllimliyi» və «Dil və ədəbiyyat müəllimliyi (rus dili və ədəbiyyatı müəllimliyi)», «Xarici dil müəllimliyi (alman dili müəllimi)» və «Xarici dil müəllimliyi (fransiz dili müəllimi)» ixtisaslarının IV kurs tələbələri passiv pedaqoji təcrübəsini Yasamal rayonunun müxtəlif məktəblərində keçmişlər.

## Beynəlxalq tədbirlərdə iştirak

- 13-15 dekabr 2012-ci il tarixində Qafqaz universitetində keçirilən I Beynəlxalq Bəxtiyar Vahabzadə simpoziumunda prof. Qara Namazov, prof. İfrat Əliyeva, f.e.n. Hüseynova Nəzakət , dos. Mətanət Abdullayeva, dos., Etibar Talıblı, dos. Sevda Sadıqova, dos. Yeganə İsmayılova, Cavadova Rəna iştirak etmişlər
- 16-20 may 2012-ci il tarixində Türkiyədə keçirilən "9. Nizamidən Yunis Əmrəyə Mustafa Kamal Atatürkdən Heydər Əliyevə uzanan Sevgi və Barış yolu" simpoziumunda f.e.n. Hüseynova Nəzakət iştirak etmişdir
- 31 may -1 iyun 2012 Türkiyədə kecirilən "Qarabağdan Amasyaya könül körpüsü-Həmzə Nigari Beynəlxalq simpoziumunda Mətanət Abdullayeva və Qurbanova Məhbubə iştirak etmişlər
- 24-28 sentyabr 2012 Türkiyədə kecirilən Beynəlxalq Türk dili Qurultayda Azərbaycan дili вə яdəbiyyatinin tədrisi metodikası кafedrasıныı dosенти Mətanət Abdullayeva, Türkologiya kafedrasının dosenti Qızılgül Abdullayeva iştirak etmişlər.
- 27 noyabr 2012 Azərbaycan Dillər Universitetində "Tətbiqi dilçiliyin aktual problemləri" mövzusunda keçirilmiş Beynəlxalq elmi konfransda "Türkoloji araşdırmalar" ELT-in əməkdaşı Pərvin Eyvazov və Türkologiya kafedrasının magistrantı Nuray Xıdırova iştirak etmişlər.

## ELMİ TƏDQİQAT IŞLƏRININ NƏTİCƏLƏRİ HAQQINDA MƏLUMAT

2011-ci ildə **Azərbaycan şifahi xalq ədəbiyyatı** kafedrasının əməkdaşları "Poetika məsələləri" adlı ümumi üçillik problemin 7 mövzusu- "Folklorda gen nəzəriyyəsi ilə bağlı materialların nəşri", "XX əsr aşıq poeziyası və yazılı ədəbiyyat", "XX əsr Sovet folklorşünaslıq məktəbi", "Xalq nəsrinin janrlaşma prosesi", "Aərbaycan folklorunda mifoloji obrazlar (div, əjdaha, simurq və.s)", "Epik janrlarda motivin sujetyaradıcı elemet kimi rolu", "Kitabi-Dədə Qorqud"-un Berlin nüsxəsi və onun barədə fikir müxtəlifliyi" üzərində çalışıblar.

AMEA-nın m.ü.,prof. A.M.Nəbiyev "Gen nəzəriyyəsi ilə bağlı materiallarımn nəşri"elmi işində yuxu və ruhla bağlı erkən psixoloji dərketmə paradiqmaları, dos.N.Q.Xəlilov "XX yüzillikdə aşıq poeziyası və yazılı ədəbiyyat" elmi işində aşıq poeziyasının görkəmli ədiblərinin, o cümlədən M.Ə.Sabir, H.Cavid, A.Səhhət, A.Şaiq, C. Məmmədquluzadə, Ə.Haqverdiyev və başqalarının yaradıcılığına təsiri məsələsi, dos. E.Ə.Talıblının "XX əsr Sovet folklorşünaslıq məktəbi" elmi işində N.Andreyev ,M.Azadovski, V.Propp, V.Jirmunski, Y.Meletinski və başqalarının elmi irsi və əsərləri, dos. M.M.Məmmədovun "Azərbaycan folklorunda mifoloji obrazlar" elmi işində div, əjdaha, simurğ kimi mifoloji obrazların səciyyəvi cəhətləri, dos. S.H.Orucovanin "Xalq nəsrinin janrlaşma prosesi" elmi işində xalq nəsrinin mənşəyi, əfsanə, rəvayət, lətifə kimi epik janrlar, dos. K.F.İslamzadənin "Epik janrlarda motivin sujetyaradıcı funksiyası" adlı elmi işində motivin sujetyaradıcı cəhəti,fəlsəfə dəktoru Ü.A.Nəbiyevanın "Kitabi-Dədə Qorqud"-un Berlin nüsxəsi və onun barədə fikir müxtəlifliyi" adlı elmi işində "KDQ"-nın Berlin nüsxəsinin abidənin ayrıca bir əlyazması olması məsələləri araşdırılmışdır.

**Klassik Azərbaycan ədəbiyyatı kafedrası.** Kafedrada aparılan elmi-tədqiqat işlərinin əsas istiqaməti "Azərbaycan ədəbiyyatının ideya-bədii istiqamətləri, problem "Azərbaycan ədəbiyyatının sənətkarlıq problemləri" və bu ilə təyin olunan kafedranın ümumi mövzusu "Azərbaycan ədəbiyyatının tədqiqi məsələləri"dir.

Klassik Aərbaycan ədəbiyyatı kafedrasının professoru Q.Namazov "A.Şaiqin nəsri" adlı elmi işində ədibin "Məktub yetişmədi"," Cümənin qəzəbi","İki yoldaş","Bostançı" və.s hekayələrini,prof.T.M.Mütəllimov "Nəcəf bəy Vəzirovun dramaturgiyasında janr problemi" adlı elmi işində dramaturqun kiçik həcimli pyesləri, f.e.d. S.M.İbrahimovun "Azərbaycan divan ədəbiyyatı" adlı elmi işində divan ədəbiyyatının poetikası, dos.Z.Salmanova "Əliqulu Qəmküsarın felyetonlarında tənqid obyekti" elmi işində ədibin felyetonlarının məzmun və ideyası, dos.L.Əliyevanın "Orta əsrlərin son dövründə Azərbaycan bədii nəsrində hekayə janri" elmi işində V.Ərəşin "Düzdü qazı" hekayəsi M.Nəsrinin " Lisanüt-teyr"hekayət toplusu, dos.M.Vəliyevin "Ş.İ.Xətayinin "Dəhnamə"si" elmi işində " Dəhnamə" poemasının ideya – məzmun, bədii xüsusiyyətləri, dos.J.Hüseynovanın "C.Məmmədquluzadə dramaturgiyasında qadın hüquqsuzluğunun tənqidi"elmi işində görkəmli sənətkarın "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı" əsərlərində hüquqsuz Azərbaycan qadınlarının acı taleyi, dos. əvəzi M.Bayramlının "C.Məmmədquluzadə dramaturgiyasının orta məktəblərdə tədrisi məsələləri" elmi işində müəllifin yaradıcılığının tədrisi , dramatik növün bədii xüsusiyyətləri və.s.,dos.S.M.Qocayevanın "XV-XVI əsrlər Azərbaycan ədəbiyyatında təsəvvüf" elmi işində Ş.İ.Xətayi, Füzuli və Həqiri kimi sənətkarların irfana münasibəti, dos. M.Həsənovanın "C.Məmmədquluzadə və milli özünüdərk" adlı elmi işində Azərbaycan xalqının milli şüurunun təşəkküllünə C.Məmmədquluzadə yaradıcılığının təsiri, dos. əvəzi Y.N.İsmayılovanın "Yazılı ədəbiyyat ənənələrinin "Kitabi-Dədə Qorqud"eposuna təsiri məsələlərinin araşdırılması"elmi işində klassik ədəbiyyatda "KDQ" motivləri, b/müəllim T.Həsənovun "Y.V.Çəmənzəminlinin ədəbi tənqidi görüşləri" adlı elmi işində ədibin tənqidi fikirləri araşdırılır.

**Müasir Azərbaycan ədəbiyyatı.** 2011-ci ildə kafedranın plan işində Azərbaycan ədəbiyyatının aktual problemləri əsasən iki istiqamətdə tədqiq edilmişdir.

1.Proqram, dərslik,dərs vəsaiti
2.Monoqrafik tədqiqatlar

Prof.T.H.Hüseynovun "Ədəbi portretlər: Elçin" elmi işində Elçinin yaradıcılığı, prof. A.Ə.Abbasovun "Ə.Haqverdiyevin bir pərdəli pyesləri"adlı elmi işində Ə.Haqverdiyevin 9 kiçik pyesi, prof. İ.S.Əliyevanın "Əli Kərim yaradıcılığında təbiət və məhəbbət mövzusu" elmi işində onun bu mövzuda yazdığı əsərləri, prof. A.Ə.Məmmədovanın "Həbib Sahirinin sürgün şeirləri"adlı elmi işində şairin sürgün illəri və sürgündə yazdığı əsərləri, prof. V.S.Sultanlının "Azərbaycan ədəbi tənqidi XIX əsrdə" adlı elmi işində M.F.Axundovun ədəbi-nəzəri görüşləri, məqalələri, "Kəmalüddövlə məktubları" traktatı, məktubları, dos. H.N.Abdiyevanın "M.İ. Ordubadinin dramaturgiyası" adlı elmi işində onun tarixi , həm də müasir mövzulu pyesləri, dos. İ.F.Rəhmanovanın "Müasir Azərbaycan nəşri /romanlar/"adlı elmi işində Ə.Azayevin "Müstəntiqin məharəti" ,S.Səxavətin "Nekroloq",Y.Kərimovun "Qarabağ şikəstəsi"və.s. əsərlər,dos.T.T.Hüseynovun "Romantizmin ənənələri və H.Cavid yaradıcılığının ideya-estetik qaynaqlar" adlı elmi işində romantizm ənənələri və H.Cavid yaradıcılığının ideya-estetik qaynaqları, fəlsəfə doktoru S.Ə.Sultanovanın "XX əsrin II yarısında nəsr" adlı elmi işində 60-cı illərdən başlayaraq ədəbiyyatımızın mühüm mövzuları, fəlsəfi doktoru RM.Həsənovun "1990-cı illər poemalarında mövzu və xarakter" adlı elmi işində bu dövrün poemalarının mövzu və xarakterik cəhətləri , fəlsəfə doktoru S.İ.Hüseynovanın "İ.Şıxlının əfsanə və rəvayətləri" adlı elmi işində İ.Şıxlının "Məni itirməyin", "Sapı özümüzdəndir", "Şahın oğlu" və.s. əfsanələr araşdırılır.

**Türk xalqları ədəbiyyatı kafedrası**. 2011-ci ildə Türk xalqları ədəbiyyatı kafedrasının əməkdaşları türk folkloru, qədim, orta əsrlər və müasir dövr ədəbiyyatı, Azərbaycan ədəbiyyatı ilə qarşılıqlı əlaqələr istiqamətində tədqiqatlar aparmışlar.

Prof. P.Xəlilov "XXəsr müasir dövr türk xalqları ədəbiyyatı" adlı elmi işində XX əsr türk xalqları ədəbiyyatı nümayəndələri haqqında, dos. S.C.Səfərəliyevanın "Avtobioqrafik povest janrı qırğız ədəbiyyatında" elmi işində A.Tokombayevin "Əsgər olmuşlar", Ş.Beyşənəliyevin "İncimişlərin əcdadları", K.Osmanəliyevin "Uzun yol", "Təhsil axtarışında" və.s povestlər, dos.A.Ə.Məmmədovun "XX əsrin əvvəllərində türk poeziyası" adlı elmi işində dövrün poeziyası mövzu baxımından, dos.F.A.Ağayevanın "Abay Azərbaycan ədəbiyyatşünaslığında" elmi işində Abayın həyatı,yaradıcıllığı,mühiti və ədəbi irsi, fəlsəfə doktoru S.Ş.Əliyevanın "Sənətkarlıq məsələləri "adlı elmi

işində XX əsrin I yarısında türk ədəbiyyatında , sənətkarların yaradıcılığında ifadə və məzmun gözəlliyi , fəlsəfə doktoru S.O.Ağayevanın "Dramaturgiya və sənətkarlıq"R.N. Güntəkin dramaturgiyasında sənətkarlıq" adlı elmi işində dramaturgiyanın forma və janr əlvanlığı, R.N.Güntəkinin dramları araşdırılır.

2011-ci ildə **Dünya ədəbiyyatı kafedrasının** əməkdaşları "XVIII əsr Qərb ədəbiyyatı" istiqamətində "Qərb ədəbiyyatı tarixinin və nəzəriyyəsinin araşdırılması" problemi üzrə "XVIII əsr Qərb ədəbiyyatı və onun əsas inkişaf istiqamətləri" mövzusu sahəsində işləmişlər.

Prof. C.Q.Nağıyevin "Bomarşenin yaradıcılığı" adlı elmi işində Karon de Bomarşe Pyer Oqüstenin "Yevgeniya", "Sevilya bərbəri", "Sərsəm gün yaxud Fiqaronun toyu" və.s. əsərlər, prof.Ə.M.Xəlilov "Lessinqin həyat və yaradıcılığı" adlı elmi işində XVIII əsr alman ədəbiyyatı görkəmli nümayəndəsi Lessinqin "Miss Sara Sampson" ailə dramı, "Minnafon Barnhem" realist komediyası, "Emilya Qalotti" faciəsi, "Müdrik Natan" dramatik poeması və.s. prof. Ü.İ.Bədəlbəylinin "Smolletin həyat və yaradıcıllığı" adlı elmi işində Corc Smolletin əsərləri, dos.E.E.Mehrəliyevin "Vilandin həyat və yaradıcıllığı" elmi işində alman yazıçısı Kristof Martin Vilandin ictimai fəlsəfi romanı, hekayələri, dos.N.A.Həsənovanın "Karlo Qoldonin həyat və yaradıcılığı" adlı elmi işində italyan dramaturqunun komediyaları, dos.N.A.Sadıxlının "D.Didronun həyat və yaradıcıllığı" adlı elmi işində onun həyatı və yaradıcılığı, "Fəlsəfi fikirlər", "Korlar haqqında məktub" əsərləri , dos.S.T.Məmmədovanın "Ceyms Tompsonun yaradıcılığı" adlı elmi işində C.Tompsonun "İlin fəsilləri" əsəri, fəlsəfə doktoru N.F.Həsənovanın "A.Pop, A.Adison, R.Stil" adlı elmi işində ingilis maarifçiliyinin nümayəndələrinin əsərləri , fəlsəfə doktoru N.Ş.Göyçayskayanın "J.J.Russonun həyat və yaradıcılığı"adlı elmi işində XVIII əsr fransız maarifçilik ədəbiyyatının görkəmli nümayəndəsi J.J.Russonun "İctimai müqavilə", "Mühakimələr" adlı elmi nəzəri əsərləri, "Emil" adlı pedaqoji romanı və.s., fəlsəfə doktoru N.Ə.Vəliyevanın "Bekfordun yaradıcılığı" adlı elmi işində XVIII əsr ingilis maarifçiliyinin görkəmli nümayəndəsi Uilyam Bekfordun "Qeyri-adi sənət əsərlərindən xatirələr", "Azemiya" və.s. əsərləri fəlsəfə doktoru N.X.Al-Abbasinin "Şenyenin yaradıcılığı" adlı elmi işində romantizmin sələflərindən sayılan bu fransız şairi və publisistin "Gənc əsir qız" odası və şeirləri araşdırılır.

**Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası.** Kafedranın əməkdaşları 2011-ci ildə elmi işlərin iki istiqamətdə aparmışlar:

1.Azərbaycan dili və ədəbiyyatının məsələləri /orta məktəb dərslikləri üzrə)

2.Azərbaycan ədəbiyyatı məsələləri/Remarka,ricət,ənənə)

Əsas yeri "Azərbaycan dili" və "Ədəbiyyat" dərsliklərinin tərtib tarixi tutur. Prof. Y.M.Seyidov "Bəxtiyar Vahabzadənin pyeslərinin remarkaları" adlı elmi işində B.Vahabzadənin 10 pyesindən 5-i remarka baxımından, dos. M.Ə.Qurbanovanın "1921-1925-ci il dərsliklərində qrammatika məsələsi" adlı elmi işində S.M.Qənizadənin qrammatikaya dair 1922-ci ildə yazdığı əsəri, dos.M.Ə.Abdullayevanın "Klassik poeziyamızda kosmoqoniya məsələləri"adlı elmi işində Nizaminin,Nəsiminin və Füzulinin bədii-fəlsəfi təfəkkürünü əks etdirən beytlər,dos.İ.İ.Şəmsizadənin 1960-cı illərdə nəşr olunmuş V sinif "Ədəbiyyat" dərsliklərində "Nəsr nümunələri" adlı elmi işində həmin dövrün hekayə və povestləri, fəlsəfə doktoru S.Ş.Mustafayevanın "1951-1955-ci illər məktəb dərslikləri. Sintaksis. Mürəkkəb cümlələr" adlı elmi iişində 1951-1955-ci illərdə nəşr olunmuş " Azərbaycan dilinin qrammatikası/ sintaksis/" dərslikləri,b/m, G.H.Abbasovanın "1936-1940-cı illərdə nəşr olunmuş qrammatika dərsliklərində /sintaksis /Mürəkkəb cümlə" adlı elmi işində dos.İ.Həsənovun " Qrammatika"(1936) və "Sintaksis" (1937) kitablarındakı budaq cümlələr, dos.R.D.Mahmudovun "XIII-XIV əsrlərdə yaranan lüğətlər" adlı elmi işində "İbn Mühənna lüğəti",quruluşu və onun tədqiqatçıları,dos.S.A.Orucovanın "1940-cı illərin "Ədəbiyyat" dərsliyində ( V sinif üçün) nəsr nümunələri"adlı elmi işində həmin dövrün "Ədəbi oxu" və "Ədəbiyyat" dərslikləri, dos.O.N.Priyevanın "1970-ci illərdə V sinif dərsliklərində nəsr nümunələri" adlı elmi işində həmin dövrün çap olunan "Ədəbiyyat" dərsliklərinin nəsr nümunələri, fəlsəfə doktoru, müəllim E.H.Məmmədovun "Füzulinin XIX əsr davamçıları" adlı elmi işində XIX əsr Azərbaycan ədəbiyyatında Füzuli poetik ənənələri, dos.S.M.Seyidovanın "1936-1940-ci illər məktəb dərslikləri/Morfologiya).Nitq hissələri fel, zərf,köməkçi nitq hissələri" adlı elmi işində 1937-1938-ci ildə nəşr olunmuş dərsliklərdə zərf, bağlayıcı,qoşma və nida kimi əsas və köməkçi nitq hissələri, müəllim N.M.Hacıyevanın "Azərbaycan nağıllarında ritorik fiqurların ekspressivliyi" adlı elmi işində nağıllardan seçilmiş nümunələrə istinadən ekspressivliyi törədən ritorik fiqurlar,fəlsəfə doktoru,b/m. Ş.C.Abdullayevanın "Əhməd Cavad Emre" Sərf və nəhv "/Lisan Osmani) .Hərflər, saitlər,samitlər.Bəzi imla qaydası. Hərəkələr.Həmzə.Vurğu işarələri" adlı elmi işində bəzi imla

qaydaları,ahəng qanunu, müəllim İ.A.Məhərrəmovanın “1980-ci illərdə V sinfin “Ədəbiyyat” dərslikləri .Nəsr nümunələri” adlı elmi işində həmin dövrdə çap olunmuş “Ədəbiyyat” dərsliklərindəki nəsr nümunələri, dos.Ə.H.Cavadovun “1896-1900-cü illərdə tərtib edilmiş dərslikləri” adlı elmi işində R.Əfəndiyevin “Uşaq bağçası”, N.Nərimanovun “Türk-Azərbaycan dilinin müxtəsər sərf –nəhvi”və.s. dərslikləri dos.S.V.Abbasovanın “2000-ci illərdə V sinifin “Ədəbiyyat” dərslikləri. Nəsr nümunələri” adlı elmi işində 2004-2008-ci illərdə çap olunmuş “Ədəbiyyat” dərsliklərində nəsr nümunələri, müəl.İ.H.Rzayevanın “1990-cı illərdə V sinif “Azərbaycan dili” dərslikləri. Orfoqrafiya və orfoepiya məsələləri” adlı elmi işində 1990-cı illərdə çap olunmuş “Azərbaycan dili” dərslikləri, dos.Z.P.Nəbiyevanın “1966-1970-ci illər dərslikləri/ Sintaksis/ Mürəkkəb cümlə” adlı elmi işində 1966-1970-ci illər dərsliklərində mürəkkəb cümlə mövzusu, fəlsəfə doktoru, müəl.N.K.Məmmədovanın “1966-1970-ci illər məktəb dərslikləri.Morfologiya. Nitq hissələri/ fel,zərf, köməkçi)” adlı elmi işində bu dövrün dərsliklərində fel,zərf və köməkçi nitq hissələri, dos.S.M.Mərdanovanın “Məmməd Arazın poemalarında lirik ricətlər” adlı elmi işində ədibin poemalarında lirik ricətlər, dos.R.İ.Quliyevanın “1931-1935-ci illər məktəb dərslikləri. Dərsliklərdə qrammatika məsələləri”elmi işində həmin dövrün dərsliklərində Azərbaycan dilinə aid nəzəri və praktik materiallar, dos.əvəzi A.T.Əliyevanın “B.Vahabzadənin pyesləri” elmi işində ədibin “İkinci səs”, “Yağışdan sonra”və.s pyesləri,dos.C.R.Əmirovanın “1926-1930-cu illər dərsliklərində qrammatika məsələləri” adlı elmi işində 1929 –cu ildə prof.B.Çobanzadə və F.Ağaoğlunun nəşr etdirdiyi “Türk qrameri” dərsliyi, f.e.d.,prof. əvəzi H.A.Əsgərovun “1950-ci illərdə V siniflərə aid nəşr olunmuş “Azərbaycan dili” dərsliklərində orfoqrafiya və orfoepiya məsələləri, fəlsəfə doktoru Ş.A.Abasovanın “1901-1910-cu illərdə Azərbaycan dilində nəşr olunan əsərlər” adlı elmi işində həmin illərdə nəşr olunan əlifba, qiraət kitabları, b/m .Ə.Y.Ağakişiyevin “Nidanın tədqiqi tarixindən” adlı elmi işində nidalar ayrıca bir nitq hissəsi kimi, dos.Ş.Əliyevanın “Azərbaycan dili”/rus bölmələri üçün) dərsliyinin mətnləri üzrə lüğət” adlı elmi işində rus bölmələrindəki dərsliklərdən istifadəni asanlaşdırmaq üçün lüğət, dos.X..İ.Məmmədovanın “1961-1965-ci illərin məktəb dərsliklərində “Mürəkkəb cümlə”nin tədrisi” adlı elmi işində həmin dövrdə çap olunmuş dərsliklərdə “Mürəkkəb cümlə” problemi,fəlsəfə doktoru,müəl.X.F.Manaflının “XIX əsrdə Azərbaycanda qadın təhsili” adlı elmi işində ziyalılarımızın qadın təhsili və ana dilində təhsil uğrunda apardıqları mübarizə araşdırılır.

2011-ci ildə **Azərbaycan dilçiliyi kafedrasının** əməkdaşları “Azərbaycan dilinin leksik, mofoloji, sintaktik sistemi və üslubiyyatı” adlı ümumi beşillik problemin mövzusu üzərində çalışıblar.

Prof.S.Ə.Abdullayeva “Modal sözlərin qrammatik semantikasına dair” adlı elmi işində modallıq kateqoriyasının mahiyyəti,prof.B.B.Əhmədovun “Azərbaycan dilində -ca,-cə şəkilçisinin söz yaradıcılığında mövqeyi” adlı elmi işində bu şəkilçilərin funksiyaları, prof.əvəzi T.M.Hacıyevin “Köməkçi nitq hissələrinin üslubi imkanları” adlı elmi işində köməkçi nitq hissələrinin cümlədə müəyyən semantik yükün formalaşmasında iştirakı, f.e.d. İ.H.Hacıyevanın “Nitqdə ifadəlilik yaradan vasitələr” adlı elmi işində neytral vasitələr,dos.İ.T.Məmmədovun “Törəmə leksik vahidlərin semantik xüsusiyyətləri” adlanan elmi işində mənbəyin çoxmənalılığı, işlənmə tezliyi, dos. Z.Ə.Şahbazovanın “Əsas nitq hissələrinin funksiyaları” adlı elmi işində vəzifə və funksiya anlamı, dos.İ.İ.Kazımovanın “Azərbaycan dilinin sintaksisinə dair təcrübi məsələ” adlı elmi işində sadə cümlə sintaksisində feli tərkiblər, dos. F.F.Əlizadənin “Tema və remanın ekstra konteksə bağlı leksik təqdimdə” adlı elmi işində leksik-qrammatik formalaşma ,dos.Y.Ə. Məmmədli “Ədəbi dildə danışıq dili vahidlərinin normalaşması və intensivləşdirmə” adlı elmi işində klassik danışıq dilinin mənbələri,Qaracaoğlan,Q.Bürhanəddin, M,Füzuli və başqalarının dili,dos.R.Y.Həbiblinin “Reklam adlarının sintaktik xüsusiyyətləri” adlı lmi işində reklam adlarının əmələ gətirdiyi nominativ vahidlər omonimlərin işlənmə xüsusiyyətləri, b/m. M.V.Vəliyevanın “Televiziya dili” adlı elmi işində televiziyanın ədəbi dilin inkişafıdakı rolu,söz yaradıcılığı prosesində fəaliyyəti,müəl.M.S.Əlizadənin “Tabesizlik əlaqəli mürəkkəb sözlərin strukturu və üslubi xüsusiyyətləri” adlı elmi işində dilin leksik – qrammatik və frazeoloji sisteminin zənginləşməsində bu vahidlər araşdırılır.

**Ümumi dilçilik kafedrası**. Hesabat ilində kafedranın əməkdaşları “Dilin nəzəri problemləri” mözusunda araşdırma aparmışlar.

Prof.N.Q.Cəfərovanın “Dil səviyyələri və dilçilik şöbələri” adlı elmi işində dil sistemlər sistemi kimi,prof. Ə.Ə.Rəcəblinin “Kopenhagen dilçiliyində dil strukturu” adlı elmi işində Kopenhagen dilçiliyində dil strukturu məsələsi,dos.M.T.Məmmədovun “Səviyyələrarası əlaqələr” elmi işində morfonem,servem,frasemi və tərkiblərin xarakterik xüsusiyyətləri,dos.Ş.V.Qasımovanın

“Fonetika və fonologiya” adlı elmi işində fonetika və fonologiyanın kəsişən və ayrılan cəhətləri,dos.C.X.Muradovun “Mətn sintaksisi” adlanan elmi işində bu sahədə yazılmış son əsərlər, b/m. F.N. Mehdiyevin “Qrammatik kateqoriyalar” adlı elmi işində frazeoloji uyuşmalar, frazeoloji birləşmələr, frazeoloji qovuşmalar,b/m. S.Ə.Məmmədovanın “Dilçilik şöbələri” müxtəlif dillərin tipoloji xüsusiyyətləri,b/m. C.M.Əliyevanın “Bazissiz səviyyələr” adlı elmi işində söz yaradıcılığı həm bazissiz səviyyə, həm də dilçilik şöbəsi kimi araşdırılır.

2011-ci ildə **Türkologiya kafedrası** “Türk dillərinin quruluşu, tarixi və dialekt ayırmaları” adlı problem üzrə araşdırma aparmışdır.

Prof. T.Hacıyev “XIX-XX əsrlər ədəbi dili” adlı elmi işində dövrün ədəbi dilində terminoloji söz yaradıcılığı, prof. E.İ.Əzizov “Azərbaycan dilinin dialekt leksikasında arxaizmlər” adlı elmi işində Azərbaycan dilinin dialekt leksikasında türk mənşəli arxaizmlər, prof.M.D.Novruzov “Türk dillərinin quruluşu” adlı elmi işində qədim və müasir türk dillərinin fonetik, leksik, morfoloji quruluşları, prof.M.Ə.Məmmədovun “Bulqar qrupu türk dilləri” adlı elmi işində bu qrupa daxil ola dillərin spesifik xüsusiyyətləri, dos.İ.D.Vəliyev “Felin təsriflənməyən formalarının və köməkçi nitq hissələrinin tarixi inkişafı” adlı elmi işində Azərbaycan yazılı abidələrinin dilində felin təsriflənməyən formaları / məsdər, feli sifət, feli bağlama /, həm də köməkçi nitq hissələrinin qrammatik göstəricilərinin inkişafı tarixi, dos.G.Vəliyeva “Azərbaycan dili şivələrində say və zərf” adlı elmi işində bu nitq hissələri quruluşuna, məna növlərinə, dil mənbələrinə görə, dos.Q.Abdullayeva “Mürəkkəb cümlənin tarixi inkişafı” adlı elmi işindədilimizin sintaktik potensialı, dos.əvəzi S.Sadıqova “XVI əsr yazı nümunələrinin linqvistik cəhətdən tədqiqi və araşdırılması” adlı elmi işində XIV-XVI əsr yazılı abidələri, xüsusilə Füzuli yaradıcılığı, fəlsəfə doktoru,b/m. S.T.Rəhmanova “M.P.Vaqifin qrammatik dil xüsusiyyətləri” adlı elmi işində bu dövrün dil xüsusiyyətləri, xüsusən M.P.Vaqifin yaradıcılığı bu baxımdan, fəlsəfə doktoru , baş.müəl.A.Məmmədova “Dədə Qorqud” kitabında əvəzlik” adlı elmi işində arxaikləşmiş, ancaq Azərbaycan dilinin dialektlərində və türk dillərindəişlək olan əvəzliklər, müəl.Q.Ş.Xanməmmədov “M.Füzuli dilində say və əvəzlik” adlı elmi işində M.Füzuli dilində say və əvəzliklər ədəbi dil faktı kimi ,fəlsəfə doktoru, b/m.F.Kərimli “Bu meylin Azərbaycan ədəbi dilinin lüğət tərkibinə təsiri” adlı elmi işində müasir Azərbaycan ədəbi dili ilə 1920-ci illər Azərbaycan ədəbi dilinin lüğət tərkibi , müəl.S.Cəlilova Füzuli dilinin üslubi – semantik xüsusiyyətləri” adlı elmi işində Füzuli yaradıcılığında işlənmiş frazeoloji birləşmələri araşdırır.

**Rus dili kafedrası / təbiət fakültələri üzrə** / 2011-ci ildə kafedranın əməkdaşları “Müasir dilçiliyin və rus dili tədrisi metodikasının nailiyyətlərinin tədris prosesində tətbiq olunması” problemi üzərində işləmişdir.

Kafedranın müəllimləri dərs dedikləri fakültələrin tələbələri üçün rus dili üzrə metodik göstərişlər, dərs vəsaitləri və məlumat kitabçası hazırlamışlar.

**Rus dili kafedrası. ( humanitar fakültələr üzrə)** Kafedranın 2011-ci ildə elmi-tədqiqat işlərinin əsas istiqamətləri aşağıdakılar olmuşdur:

1.Dərs prosesinin tədris-metodik ədəbiyyatı ilə təminatı

2.Rus dilinin tədrisi metodikasının təkmilləşdirilməsinin effektiv yolları.

Humanitar fakültələr üzrə Rus dili kafedrasının 2011-ci il “Rus dilinin tədrisi metodikası” probleminə həsr olunmuşdur.

**Rus dilçiliyi kafedrası.** Dos.E.A.Heydərova rektorun 28.10.2011-ci il tarixli əmrinə əsasən filologiya fakültəsinin dekan müavini vəzifəsinə keçməsi ilə əlaqədar olaraq bu vəzifəni icra edən müddətdə Rus dilçiliyi kafedrasında 0,5 ştat dosent vəzifəsinə keçirilmişdir. Kafedra üzvlərindən dos.E.A.Heydərova 2011-ci il oktyabr-dekabr aylarında ixtisasartırma kursunu keçmişdir.

2011-ci ildə Rus dilçiliyi kafedrasında elmi-tədqiqat işləri 3 mövzuda davam etdirilmişdir:

1.Rus ədəbi dilinin fonetik sisteminin inkişaf qanunauyğunluqları.

2.Müasir rus ədəbi dilinin leksik-qrammatik sistemi.

3.Rus dilinin tarixi məsələləri.

Prof.L.H.Quliyeva “Azərbaycanda rus dialektlərinin kulturoloji tədqiqi”adlı elmi işində qohumluq terminləri, coğrafi adlar, peşə, sənət, istehsal fəaliyyəti ilə bağlı leksika, dos. E.C.Hacıyeva “Mürəkkəb cümlə məsələsi”adlı elmi işini V.Beloşapkovanın nəzəriyyəsi və konsepsiyaları əsasında, prof. S.A.Məhərrəmova “Üslubi sintaksis” adlı elmi işində stilistik fiqurlar qruplaşdırılır və anafora, antiteza,ritorik suallar,epifora və.s., dos. E.A.Heydərova “Cənubi slavyan dilləri”adlı elmi işində bolqar,

serb-xorvat, sloven, makedon dilləri,b/m. T.İ.İbrahimova “Müasir rus dili” adlı vəsaitin “Frazeologiya”bəhsinin nəzəri hissəsini,b/m.,f.e.n. R.İ.İsmayılova “Müasir rus dilinin sintaktik normaları və onların pozulması” adlı elmi işində rus dilli mətbuat materiallarında sintaktik normalar ,feli sifət və feli bağlama tərkibləri,b/m. F.A.Məmmədbəyli “Köməkçi nitq hissələrinin öyrənilməsi; onların qrammatik funksiyaları.Modal sözlər və nidanın öyrənilməsi;onların qrammatik və semantik xüsusiyyətləri” adlı elmi işində köməkçi nitq hissələri və nidanın nitq hissələri təsnifində yeri, b/m.N.V.Xidirov “Abxaz-adıgey dillərində fel” adlı elmi işində Qafqaz dillərinə daxil olan abxaz-adıgey dillərində funksional əsasların paradiqmatika və sintaqmatika səviyyəsində, b/m. N.T.Zeynalova “Nidanın sintaksisi(cümlədə özünəməxsusluğu)” adlı elmi işində nidalar sintaktik baxımdan, dos. V.K.Hüsynova “Müasir rus dilinin stilistika sistemi” adlı elmi işində funksional üslublar ətraflı araşdırılır.

**Klassik rus ədəbiyyatı.** Kafedranın əməkdaşları “Ədəbi əlaqələr və ədəbiyyatın zənginləşməsi” və “Rus klassik ədəbiyyatının formalaşma yolları və inkişafının tarixi mərhələləri” üzərində elmi-tədqiqat işlərini yerinə yetirmişdir.

Kafedranın üzvlərindən prof. A.C.Hacıyev “N.Qumilyovun “Allahın övladı” nağılı” adlı elmi işində N.S.Qumilyovun yaradıcılığında Şərq motivləri, dos. F.Ç.Rzayev “L.N.Tolstoyun “Şeytan” povesti Azərbaycan dilində” elmi işində povestin xüsusiyyətləri, frazeoloji birliklərin tərcüməsi, mətndə verilən izahatlar, dos.M.A.Yaqubova “XX əsrin əvvəllərində Azərbaycanın rusdilli mətbuat orqanlarında ədəbiyyat və bədii üslub məsələləri” elmi işində rusdilli mətbuat orqanlarında ədəbiyyat məsələləri v.s. araşdırılır.

**Müasir rus ədəbiyyatı.** 2011- ci ildə kafedranın əməkdaşları elmi- tədqiqat işinə “XX əsr rus ədəbiyyatının tarixi və nəzəri problemləri” istiqamətində elmi işlərini aparmışlar.

Dos. L.Z.Gərayzadə “N.Qumilyov və Şərq”adlı elmi işində N.Qumilyovun yaradıcılığında Şərq mövzusunda yazılan əsərlər, dos.R.H.Bağırov “Rus şairləri 1920-ci illərin yaradıcılığında Azərbaycan mövzusu” adlı elmi işində 1920-ci illərdə rus poeziyasında şərq motivləri, müəl. T.Q.Məmmədova “A.Blokun yaradıcılığında mədəniyyət məsələlərinin tədqiqi” adlı elmi işində A.Blokun mədəniyyət məsələlərinə dair görüşləri və nəzəri fikirləri, müəl.T.X.Məmmədov “A.Platonovun dramaturgiyası” adlı elmi işində ədəbiyyatşünaslığın inkişafının müasir dövründə dramaturgiya əsərlərinin təhlilinin metodoloji aspektləri, müəl. A.N.Bağırova “V.İvanovun yaradıcılığında sonet janrı”araşdırılır.

2011-ci ilin oktyabrından rektorun əmri ilə “Klassik rus ədəbiyyatı” və “Müasir rus ədəbiyyatı” kafedraları “Rus ədəbiyyatı tarixi” kafedrası adı altında birləşdirilmişdir.

**Alman və fransız dilləri kafedrası.** 2011-ci ildə kafedranın əməkdaşları “Azərbaycan ali məktəblərinin ixtisas fakültələrində xarici dilin/Fransız dili) tədrisi metodikasının nəzəri əsasları” üzərində elmi iş aparmışlar. Tədris ilində dos. E.N.Fərəcullayeva , b/m. M.L.Məmmədov və b/lab. E.F.Yunusovanın “Fransız ədəbiyyatı”(fransız dilində),prof. Ə.A.Hüseynov və E.N.İlyaslının “Alman dilinin praktik qrammatikası”, C.T.Məmmədovanın III sinif üçün “Alman dili dərsliyi” v.s. nəşr olunmuşdur.

**İngilis dili kafedrası**. 2011- ci ildə İngilis dili kafedrasının əməkdaşları “Dilçilik” istiqamətində “lüğətçilik məsələləri” problemi üzərində çalışmışlar.

2011-ci ildə B.Hacıyevin “Gəlin ingiliscə danışaq” kitabı,A.Abbasov, Ş.Səfərovun “Psixologiya” magistrant tələbələr üçün dərs vəsaiti”,dos.A.Abbasov, H.Həsənov,M.Quliyevin “İngiliscə-Azərbaycanca texniki terminlər lüğəti”,S.Qarayeva,C.Ağayeva A.Məmmədova və başqalarının “English Reader”dərs vəsaiti, dos. A.Abbasov,R.Abbasova, A.Qarayev “English First Course” dərs vəsaiti v.s. çap olunmuşdur.

## 4.Dərc olunmuş elmi işlərinin xarakteristikası.

Kafedralarda dərs yükü yerinə yetirməklə elmi-tədqiqat işlərinin nəticələri çox vaxt dərslik, dərs vəsaiti,monoqrafiya, məqalə şəklində dərc olunur və geniş oxucu kütləsinə çatdırılır.

### 4.1. Dərsliklər və dərs vəsaitləri.

2011-ci ildə dos. F.Ağayevanın “Abay və Azərbaycan” dərs vəsaiti, prof. Ə.Xəlilov “Dünya ədəbiyyatı” (I hissə ) dərs vəsaiti , fəlsəfə doktoru N.Həsənovanın “Müasir Avropa ədəbiyyatı” dərs vəsaiti, dos. S.Sadıqovanın “Bədii mətnin linqvistik təhlili” dərs vəsaiti, prof. A.Hacıyev, F.Rzayevin və başqalarının “Rus ədəbiyyatında Şərq” dərs vəsaiti, prof. əvəzi İ.İbrahimovun “İran, Əfqanıstan, Tacikistan ədəbiyyatı” /Azərbaycan ədəbiyyatı ümumşərq kontekstində” fənni üzrə/ dərsliyi v.s. nəşr olunmuşdur.

### 4.2.Monoqrafiyalar.

2011- ci ildə AMEA-nın m.ü.,prof. A.Nəbiyevin "Folklor yaradıcılığında fasiləsiz transfer və yuxu paradiqmaları", Q.Namazovun "C.Corcvodun tarixi kəşfləri", prof. A.Məmmədovanın " Güney Azərbaycan : Qurulmuş torun məngənəsi", dos. R.Bağırovun "Şəhərlərin ən sevimlisi"/rus dilində), prof.A.Hacıyevin "Poeziyadan nəsrə" /Mir Cəlal nəsrinin poetik əsasları / , dos. M.Vəliyevin "Q.Bürhanəddinin mənəvi dünyası", dos.M.Bayramlı "Azərbaycan realist poeziyasının təkamülü", dos.M.Həsənovanın "Dağ cığırında başlanan yol",dos. Y.İsmayılovanın "Dədə Qorqud kitabı və müasir Azərbaycan bədii düşüncəsi", fəlsəfə doktoru S.Abbasovanın "Aqşin Babayev : həyatı və yaradıcılığı" və.s. monoqrafiyalar çap olunmuşdur.

### 4.3 Məqalələr

2011-ci ildə filologiya fakültəsinin müəllimləri 300-dən artıq məqalə çap etdirmişlər.

T.Hacıyev- "Vaqifin dili"// "Azərbaycan dili və ədəbiyyatı tədrisi" .2011, № 1, s.6-10.

E.Əzizov –"Mirzə İbrahimov və ana dili"// "Dil və ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnal.2011, №1, s.39-42.

M.Məmmədov –"Zərdab şivəsinin morfoloji xüsusiyyətləri"// Dillər Universitetinin xəbərləri,2011.№1.

İ.Vəliyev- M.Zəririn "Yusif və Züleyxa" poemasının dilində felin əmr şəkli // Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş "Azərbaycan filologiyasının aktual problemləri" elmi-nəzəri konfransın materialları. Bakı, 18-19 may, 2011, s.274-278

A.Nəbiyev-"Alban mədəniyyətinin izi ilə- Azərbaycan mifologiyasının qaynaqları və mənbələrinə dair", "Folklorşünaslıq məsələləri". IX cild, 2011, s.11-19.

N.Xəlilov- Məhəmmədin "Şəhriyar" dastanı dastan ənənəsi // Abbas Zamanovun 100 illik yubleyinə həsr olunmuş elmi-nəzəri konfransın materiaları. Bakı, 2011, s.375-385.

S.Orucov- "SMOMPK məcmuəsində nəşr edilən Şahsevənli Hacının iti" mətni nağıldırmı?" "Filologiya məsələləri", № 10, 2011, s.450-459

